# Türk dövlətlərinin həmkarlar ittifaqları birləşdi

## Səttar Möhbalıyev təşkilatın vitse-prezidenti seçildi

Sentyabrın 22-də Özbəkistanın Səmərqənd şəhərində Türk Dövlətlərinin Həmkarlar İttifaqları Təşkilatının (TDHİT) təsis yığıncağı keçirilib.




Tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Qazaxıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Satıbaldı Dauletalin, Türkiyənin İşçi Həmkarlar İttifaqları Təşkilatları Konfederasiyasının (TÜRK-İŞ) sədri Ərgün Atalay, Qırğızıstan Həmkarlar İttifaqları Federasiyasının sədr müavini Omor Arslanbekov, Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının sədri Qudratulla Rafiqov və nümayəndələr iştirak ediblər.

Gündəliyə TDHİT-nin yaradılması, nizamnaməsinin və Şurasının tərkibinin təsdiqi, TDHİT-nin prezidenti, vitse-prezidenti, baş katibi, Təftiş komissiyası sədrinin və komissiyasının say tərkibinin müəyyənləşdirilməsi, eləcə də qurumun qurultayının çağırılması haqqında məsələlər daxil edilib.

İştirakçıları salamlayan Qudratulla Rafiqov türk dövlətləri arasında həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərdən, həmrəyliyə nail olunması istiqamətində görülmüş işlərdən danışıb, konfransın məqsəd və vəzifələrindən, TDHİT-nin yaradılmasının səbəblərindən və əhəmiyyətindən bəhs edib.

Tədbirdə çıxış edən Səttar Möhbalıyev türk dövlətlərinin sıx dostluq və qardaşlıq əlaqələrindən, xüsusilə bu aspektdə son illərdə ölkə rəhbərləri səviyyəsində görülən işlərdən və təşkil olunan qarşılıqlı səfərlərdən, dəstəkdən, münasibətlərimizin möhkəmlənməsində və inkişafında Türk Dövlətləri Təşkilatının səmərəli fəaliyyətindən söz açıb. TDHİT-nin yaradılmasının zəruriliyinə toxunan AHİK sədri bildirib ki, təşkilat ölkələrimizin həmkarlar ittifaqları arasında hərtərəfli əməkdaşlığı daha da dərinləşdirəcək, əməkçilərin hüquq və mənafelərinin birgə müdafiəsinə böyük töhfə verəcək, həmrəyliyi artıracaq.

Tədbirdə digər ölkələrin Həmkarlar İttifaqlarının sədrləri də çıxış ediblər. Yığıncaqda gündəliyə çıxarılan məsələlər ətrafında müzakirələr aparılıb, rəy və təkliflər dinlənilib.

Birgə qərarla TDHİT yaradılıb. Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının sədri Qudratulla Rafiqov TDHİT-nin prezidenti, AHİK sədri Səttar Möhbalıyev vitse-prezident, Satıbaldı Dauletalin baş katib, Omor Arslanbekov Təftiş komissiyasının sədri seçiliblər. TDHİT Şurasının tərkibi təsdiqlənib və qurumun mənzil qərargahının Türkiyənin paytaxtı Ankara şəhərində yerləşəcəyi müəyyənləşib. Təşkilatın qurultayının bu il noyabrın 29-da Ankarada keçirilməsi qərara alınıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 23 sentyabr.- S.8.